# XALQ ÖZ BÖYÜK OĞLUNU SONSUZ EHTİRAMLA ANIR!



***Azərbaycan xalqı görkəmli dövlət xadimi, parlaq siyasi dühası sayəsində zamanın fövqündə duran, dünya liderləri sırasında fəxri yer tutan ulu öndər Heydər Əliyevi daim ehtiramla yad edir, xatirəsini əziz tutur.***
***Ümummilli liderin, böyük mütəfəkkirin müdrik kəlamları onun zəngin dövlətçilik təfəkkürünün, milli məfkurəsinin, həyat fəlsəfəsinin heyrətamiz ifadəsidir.***

**Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!**

---

**Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.**

---

**Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur.**

---

**Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.**

---

**Xalq azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.**

---

**Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.**

---

**Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.**

---

**Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!**

---

Xalq qəzeti.- 2018.- 12 dekabr.- S.1.